# SƏDİYEV VƏZİR İSA OĞLU



6 iyun 1961-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olmuşdur. Orta təhsilini Qərbi Azərbaycanın Körpülü kəndində başa vurduqdan sonra Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Rusiyanın Qorki şəhərindəki hərbi məktəbə müəllim təyin edilmişdir. Sovet qoşunları Əfqanıstana girəndə baş leytenant Vəzir Sədiyev artilleriya taborunun komandiri idi. Əfqanıstan müharibəsində iştirak etdikdən sonra mayor rütbəsi ilə qərargah rəisinin müavini təyin edilmişdir. Həmçinin o, ikinci dərəcəli "Peşəkar zabit" döş nişanına layiq görülür. Vəzir Sədiyev hərbi xidməti zamanı 2 orden, 3 medal və eləcə də keçmiş SSRİ Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir. Ermənilər Qarabağda torpaq iddiası ilə ayağa qalxanda mayor Sədiyev Azərbaycanın Müdafiə Nazirliyinə müraciət etdi. O, Artilleriya və Hərbi Hava Qüvvələri İdarəsində döyüş hazırlığı şöbəsinin rəis müavini vəzifəsinə təyin edilir. Laçında dəhliz vasitəsi ilə dağılmış imperiyadan ermənilərə miras qalmış nəinki silah-sursat, hətta ən ağır texnikalar Qarabağa daşınırdı. Mayor Sədiyev heç bir əmr-filan gözləmədən həmin karvanın qarşısını (84 silah dolu yük maşını və ağır texnika) almaq üçün əməliyyata keçirib, düşmənin sonuna çıxdı. Sədiyev həm də peşəkar kəşfiyyatçı idi. O, təkbaşına düşmənin arxasına keçərək lazımi məlumatları qərargaha ötürməklə yanaşı, strateji obyektlərin darmadağın edilməsində əhəmiyyətli rol oynayırdı. Hətta Gorus-Qafan istiqamətində düşməni pusquya salan Sədiyev silahdaşları ilə birlikdə bir erməni əsgərinin də salamat çıxmasına imkan verməmişdilər. Ermənistanda hətta üç günlük matəm elan olunmuşdu. Füzulidəki adsız yüksəkliyi geri qaytarmaq üçün aldığı əmrdən sonra Vəzir dəstəsi ilə birlikdə dağın zirvəsində bir erməni əsgərini də sağ qoymamışdı. V.Sədiyev Laçın, Qubadlı, Füzuli və Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak edərək xüsusi qəhrəmanlıq göstərmişdir. 1993-cü il fevral ayının 19-u Həsənriz (keçmiş Aterk) ətrafında cəmləşən erməni taborunu geri oturtmaq üçün növbəti əməliyyat zamanı V. Sədiyevin rəhbərliyi ilə əsgərlərimiz düşməni tutduğu mövqedən çıxara bildi. Lakin, bu döyüşdə özü qəhrəmancasına həlak olmuşdu. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı var. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Sədiyev Vəzir İsa oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Binəqədi rayonunun Biləcəri qəsəbəsində 25 fevral 2014-cü ildə istifadəyə verilmiş Milli Qəhrəmanlar parkında Vəzir Sədiyevin büstü ucaldılmışdır.